# Əlyazmaçı, mənbəşünas

**Ədəbiyyatşünas, tərcüməçi, mətnşünas, filologiya elmləri namizədi Əbülfəz Həşim oğlu Rəhimov 1930-cu il fevralın 11-də Bakının Mərdəkan kəndində dünyaya göz açmışdır. Yeddiillik məktəbi Mərdəkanda bitirmiş, təhsilini Şüvəlanda fəhlə-gənclər məktəbində davam etdirmişdir.**

Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakultəsinin fars bölməsini bitirdikdən sonra Mərdəkanda 123 saylı məktəbdə müəllim, Cəfər Cabbarlı adına kitabxanada qiraətxana müdiri və nəhayət Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun Mətnşünaslıq və mənbələrin nəşri şöbəsində çalışmağa başlamışdır. Eyni vaxtda aspiranturaya daxil olmuş və 1965-ci ildə "Əbdi bəy Şirazinin həyat və yaradıcılığı" mövzusunda rus dilində yazdığı dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır. Sonradan 1970-ci ildə "Əbdi bəy Şirazinin həyat və yaradıcılığı" adlı monoqrafiyasını Azərbaycan dilində nəşr etdirmişdir.Eyni institutda ömrünün sonuna qədər əvvəl böyük elmi işçi, sonra aparıcı elmi işçi vəzifələrində çalışmışdır. Gənclik illərindən bədii və elmi yaradıcılıq ilə məşğul olan alim məqalələrini "Azərbaycan", "Elm və həyat", "Kitablar aləmində", "Gənclik" və s. jurnallarda müntəzəm çap etdirmiş, Azərbaycan Elmlər Akademiyasının "Xəbərlər"ində elmi məqaləları ilə çıxış etmişdir. Onun yaradıcılığının əsas istiqamətləri klassik ədəbiyyat ilə bağlı olmuşdur. Bu sırada Bədr Şirvani ilə bağlı tədqiqatları xüsusi əhəmiyyət daşıyır. Bədr Şirvaninin həyat və yaradıcılığını tədqiq edən alim onun divanının tənqidi mətninin 1975-ci ildə Moskvada mötəbər nəşriyyatda nəşr etdirə bilmişdir. Bu nəşr Bədr Şirvaninin ədəbi irsinin öyrənilməsi və gələcək nəslə çatdırılması baxımından böyük dəyərə malikdir. Bundan əlavə Əbülfəz Rəhimovun nəşrində əməyi olan əsərlər sırasında Cahanşah Həqiqinin 1988 və 2006-cı illərdə çap olunmuş şeirlər toplusunu misal çəkə bilərik. Bu kitablardan əlavə məhsuldar alim Əbdi bəy Şirazinin "Təkmilətül-əxbar" əsərini fars dilindən tərcümə edərək müqəddimə və şərhlərlə çapa hazırlamış və əsər 1996-cı ildə "Elm" nəşriyyatında çap olunmuşdur.Böyük Azərbaycan xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevlə də bağlı tədqiqatlarda Əbülfəz Rəhimovun əməyini qeyd etmək lazımdır. O,



Əkrəm Bağırov və Paşa Əlioğlu ilə birlikdə "Hacı Zeynalabdin Tağıyev: Öz dövrünün aynasında" adlı kitab nəşrə hazırlamış və əsər iki dəfə çap olunmuşdur (1993, 2020). Əbülfəz Rəhimovun fars dilindən tərcümə etdiyi əsərlər sırasında "Şah Təhmasibin təzkirəsi"ni də misal çəkmək olar. Azərbaycan tarixinə aid olduqca dəyərli məlumatlar verən bu əsər Bakıda 1996-cı ildə nəşr edilmişdir. Onun əsərləri sırasında əski əlifbadan çevirərək nəşrə hazırladığı və 1993-cü ildə çap olunmuş Məhəmmədhəsən Vəlili Baharlının "Azərbaycan" əsərini də qeyd etmək olar. Əbülfəz Rəhimov klassik irsdən nəşrə hazırlanmış bir silsilə əsərlərin də vicdanlı və məsuliyyətli redaktoru olmuşdur. Bunların sırasında Əhməd Səbri Həmədaninin"İslamda Cəfəri Məzhəbi və İmam Cəfəri Sadiqin buyruqları"kitabının tərcüməsini (Bakı-1991), Əmir Xosrov Dəhləvinin "Leyli və Məcnun" poemasını (Bakı-1970), "Saib Təbrizi və fars dilli poeziyada hind üslubu"(Bakı-1994) əsərlərini göstərmək olar.

Əbülfəz Rəhimov doğulduğu, böyüyüb boya-başa çatdığı yurda - Mərdəkana çox bağlı olmuş, ömrünün sonuna qədər bu məkanda yaşamışdır. Özünün Mərdəkan və mərdəkanlılar qarşısında mənəvi borcunu hiss edən alim "Mərdəkan" adlı kitab yazmış, bu məkanın tarixi, bu günü, ziyalıları və görkəmli şəxsiyyətləri haqqında geniş məlumat vermişdir. Bu əsər ilk dəfə 1994-cü ildə, sonra isə təkrar olaraq 2013-cü ildə nəşr edilmişdir.

Əbülfəz Rəhimov son nəfəsə qədər çalışmış, qələmi əlindən yerə qoymamış 1995-ci ilin 25 noyabrında vəfat etmişdir. Onun bütün həyatı əsl Azərbaycan ziyalısının simvolu və nümunəsidir.

**Əkrəm BAĞIROV**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**